# Dünya xalqları ümummilli lider Heydər Əliyevin xatirəsini hörmətlə yad edirlər

## RUSİYA



Dekabrın 12-də Azərbaycanın Rusiyadakı səfirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş gecə keçirilib. Tanınmış siyasi və ictimai xadimlər, Heydər Əliyevin dostları və məsləkdaşları, dost ölkələrin səfirləri ulu öndərin xatirəsini yad etmək üçün Azərbaycan səfirliyinə gəlmişdilər.

Tədbir iştirakçıları Azərbaycan xalqının ümummilli liderinin səfirliyin foyesindəki barelyefi önünə tər çiçəklər qoyublar.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu mərasimi açaraq qeyd edib ki, bu gün görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günüdür. P.Bülbüloğlu deyib: “Heydər Əliyev yalnız cismən dünyasını dəyişib, çünki o həmişə bizimlədir”.

Diplomat onun bir şəxsiyyət və bəstəkar kimi formalaşmasında ulu öndərin böyük rol oynadığını bildirərək deyib: “Mən onun dövründə on il mədəniyyət naziri vəzifəsində işləmişəm. Bu, böyük məktəbdir və ömrümün sonunadək mənimlə olacaq. Bəxtim çox gətirib ki, həmin on il ərzində Heydər Əliyevin həm respublika daxilində, həm də dünya ölkələrinə bir sıra səfərlərində onu müşayiət etmişəm, Qarabağ mövzusunda, Azərbaycanın inkişafı mövzusunda çox kəskin diskussiyaların şahidi olmuşam. 1990-cı illərin əvvəllərində Azərbaycan xalqının həyatında çox çətin dövr idi – biz suiqəsd və dövlət çevrilişi cəhdlərinin şahidi olmuşuq. Məhz Heydər Əliyevin müdrikliyi, zəngin təcrübəsi və böyük nüfuzu sayəsində bu çətinliklərə dözüb dayanmışıq. O, praktiki olaraq yeni Azərbaycan qurmağa, ölkənin yeni neft strategiyasını yaratmağa nail olub və bu strategiya parlaq nəticələr verib”.

Rusiya Prezidentinin Mərkəzi Federal Dairə üzrə səlahiyyətli nümayəndəsi, uşaqlıq illəri Bakıda keçmiş Aleksandr Beqlov o dövrü xatırlayaraq qeyd edib ki, Azərbaycanın paytaxtı həmişə beynəlmiləl şəhər olub. Azərbaycan digər xalqların mədəniyyətinin inkişafına imkan yaradır, azərbaycanlılar isə hamını böyük qonaqpərvərliklə qəbul edirdilər.

“Heydər Əliyev böyük beynəlmiləlçi idi. Mən Heydər Əliyevlə Sankt-Peterburqda görüşmüşəm. Onunla xeyli söhbət etdik. Mən onu həmişə çox müdrik bir insan, adı böyük hərflə yazılmağa layiq olan beynəlmiləlçi kimi xatırlayıram”, - deyə A.Beqlov vurğulayıb.

Rusiya xalqının müasir Azərbaycanın banisi, dahi Heydər Əliyevin xatirəsini həmişə böyük hörmətlə yad etdiyini bildirən RF Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin sədri Leonid Slutski deyib: “Heydər Əliyev görkəmli siyasi xadim idi. Sovet dövründə o, SSRİ Nazirlər Sovetində ən mühüm sənaye sahələrinə kuratorluq edirdi. İttifaq dağılandan sonra isə Azərbaycanda hakimiyyətə qayıtdı və çox böyük çətinliklərə baxmayaraq öz xalqına rəhbərlik etdi. Bu gün Prezident İlham Əliyev onun işini uğurla davam etdirir”.

RF Dövlət Dumasının deputatı vurğulayıb ki, Heydər Əliyev fantastik şəkildə Azərbaycanı postsovet məkanında iqtisadi baxımdan ən firavan ölkələrdən birinə çevirdi. Müasir Azərbaycanın bütün tarixi Heydər Əliyevin adı ilə bağlı olub, onun adı ilə bağlıdır və bağlı olacaq. Bu gün Rusiyada minlərlə insan Heydər Əliyevin xatirəsini yad edir. Biz bugünkü sabit, firavan Azərbaycanla münasibətlərin inkişafına kömək edəcəyik.

L.Slutski əmin olduğunu bildirib ki, Azərbaycan və Rusiya xalqları arasında əlaqələr durmadan inkişaf edəcək.

RF Kommunist Partiyasının sədri Gennadi Züqanov deyib: “Tale məni lap uşaqlıq dövründən Azərbaycanla bağlayıb. Atam müharibənin əvvəlində Vinnitsada vuruşub, sonra Odessanın müdafiəsində iştirak edib, Sevastopola gedib çıxıb və orada ağır yaralanıb. Onu Bakıya göndəriblər, orada beş dəfə əməliyyat olunub. Mən uşaq olarkən atam mənə günəşli Bakı barədə, duz-çörəkli, gözəl Azərbaycan xalqı barədə danışırdı. Bu işıqlı, xeyirxah hisslər ömürlükdür”.

G.Züqanov qeyd edib ki, Heydər Əliyev istedadlı natiq, mütəfəkkir və eyni zamanda, qətiyyətli adam idi: “Yollarımız tez-tez kəsişirdi. Azərbaycan xalqının bəxti gətirib ki, onun Heydər Əliyev kimi lideri olub. Xalq yaxınlaşmaqda olan təhlükəni duyanda insanlar ən nüfuzlu, iradəli və güclü lider kimi Heydər Əliyevə üz tutaraq gəlib xalqa kömək göstərməsini təklif ediblər”.

Özünün Azərbaycana səfərlərini də xatırladan G.Züqanov deyib: “Dünyanın ən gözəl şəhərlərindən biri olan Bakıya heyran qalmışam. Gül-çiçəkli bağçanı xatırladan 15 kilometr uzunluğunda heyrətamiz Bakı bulvarı, möcüzəli memarlıq nümunələri göz oxşayır. Siz öz şəhərinizi gözəlləşdirməyə və eyni zamanda onun tarixi simasını qoruyub saxlamağa nail olmusunuz. Mən Heydər Əliyevin nurlu xatirəsi qarşısında baş əymək, İlham Heydər oğluna təşəkkür etmək istəyirəm ki, o, atasının işini inamla davam etdirir. Elə liderlər var ki, millət onlarla fəxr edir, lakin elə liderlər də var ki, onlardan çox şey – dostluq, qarşılıqlı hörmət və anlaşma öyrənmək olar”.

SSRİ Xalq artisti İosif Kobzonun fikrincə, Heydər Əliyev Rusiya ilə Azərbaycan arasında mədəni dialoqun nizamlanmasında əvəzedilməz rol oynayıb: “Heydər Əliyev çoxmillətli Azərbaycan xalqının birləşməsi, bu xalqın öz gələcəyinə inanması, Azərbaycanın firavanlaşması üçün nə mümkündürsə edib. Xalq Heydər Əliyevin planlarına inanır, İlham Heydər oğlunun atasının işini mütləq davam etdirəcəyinə inanır”.

İ.Kobzon vurğulayıb ki, Heydər Əliyev çox ağır sınaqlara məruz qalıb. Lakin onun öz xalqına sevgisi, ruhən güclü olması ağrılara da, xəstəliklərə də üstün gəlirdi: “Zaman şəxsiyyətin miqyasına üstün gələ bilmir. İllər keçib və biz, Heydər Əliyevin müasirləri əminik ki, onilliklər, yüzilliklər keçəcək, amma onun adı gələcək nəsillərin xatirində əbədi qalacaq”.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Moskva**

## BELÇİKA



Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyi, NATO yanında daimi nümayəndəliyi və yerli diaspor təşkilatlarının iştirakı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Mərasimdə çıxış edən səfir Fuad İsgəndərov ulu öndərin keçdiyi şərəfli ömür yolundan danışıb, məhz onun uzaqgörənliyi, iradəsi və əvəzsiz siyasi strategiyası sayəsində Azərbaycan Respublikasının bu gün dünya ölkələri tərəfindən etibarlı tərəfdaş kimi qəbul edildiyini bildirib. O, Heydər Əliyevin dünyanın görkəmli siyasi xadimləri arasında xüsusi yeri və çəkisi olduğunu deyib, gənc nəslin nümayəndələrinin ulu öndərin zəngin irsini dərindən öyrənməsinin önəmini vurğulayıb.

Azərbaycanın NATO yanında daimi nümayəndəsi Xəzər İbrahim çıxış edərək ölkəmizin müstəqilliyinin Heydər Əliyev tərəfindən qorunub saxlanıldığını və möhkəmləndirildiyini bildirib. O, dünya dövlətləri içərisində Azərbaycanın güclü ölkə və etibarlı tərəfdaş kimi tanınmasında ulu öndərin əvəzsiz rolunun olduğunu diqqətə çatdırıb.

Mərasimdə çıxış edən digər qonaqlar da Heydər Əliyev irsinin əbədi yaşayacağına əminliklərini bildiriblər.

***Vüqar SEYİDOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Brüssel**

## KOREYA

Azərbaycanın Koreya Respublikasındakı səfirliyində zəmanəmizin görkəmli siyasi xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlıların, iş adamlarının iştirak etdikləri tədbirdə əvvəlcə ümummilli liderin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfir Rəmzi Teymurov ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, yaratdığı dövlətçilik məktəbindən danışıb. Bildirib ki, Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidməti onun şah əsəri olan müasir müstəqil Azərbaycanı yaratmasıdır. Heydər Əliyev yalnız Azərbaycan miqyasında deyil, həmçinin dünya siyasətində nadir şəxsiyyət idi.

Digər çıxış edənlər ümummilli liderin bütün mənalı ömrünü xalqının və Vətəninin inkişafına həsr etdiyini, ölkənin çətin dövründə xalqın tələbi ilə hakimiyyətə qayıdaraq, məhz xalqın dəstəyi ilə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdiyini bildiriblər. Qeyd olunub ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana sabitlik, iqtisadi yüksəliş, sosial inkişaf, demokratiya gətirdi, dövlətin hərtərəfli tərəqqisi üçün addımlar atdı.

Sonra ulu öndər Heydər Əliyevə həsr olunmuş film nümayiş etdirilib. Tədbir iştirakçıları ümummilli liderin anım gününə həsr edilmiş kitab sərgisi ilə də tanış olublar.

## BELARUS

Azərbaycan Respublikasının Belarus Respublikasındakı səfirliyində ümummilli lider Heydər Əliyevin vəfatının 13-cü ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.

Mərasimdə səfirliyin əməkdaşları, Belarusda yaşayan, işləyən, təhsil alan həmvətənlərimiz və diaspor nümayəndələri iştirak ediblər.

Müvəqqəti işlər vəkili Zülfüqar Tanarverdi tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə iştirakçılara məlumat verib. O, Heydər Əliyevin bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etdiyini, öz fəaliyyətində həmişə xalqa arxalandığını, ən çətin anlarda ona müraciət etdiyini bildirib. Diplomat Heydər Əliyev şəxsiyyətinin bütün parametrləri ilə xalqına, millətinə nümunə olduğunu qeyd edib və hər bir azərbaycanlının onun memarı olduğu müstəqil Azərbaycanın daha da qüdrətlənməsi yolunda var gücü ilə çalışmalı olduğunu vurğulayıb.

Z.Tanarverdi ulu öndərin milli inkişaf strategiyasının hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla və ardıcıllıqla davam etdirildiyini bildirib.

Sonra Belarus Azərbaycan İcmaları Konqresinin sədri Natiq Bağırov çıxış edərək ümummilli lider Heydər Əliyevin xaricdə Azərbaycan diasporunun formalaşmasında əvəzsiz xidmətləri barədə məlumat verib.



Tədbirdə Maksim Tank adına Belarus Pedaqoji Universitetində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin belaruslu tələbələri ümummilli liderə həsr olunan şeirlər söyləyib, mərkəzin rəhbəri Salatın Mirzəyeva çıxış edib.

Sonda mərasim iştirakçıları səfirliyin muzeyində Azərbaycan-Belarus münasibətlərinin dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdirilməsi istiqamətində ulu öndərin əvəzsiz xidmətlərinə dair foto və kitablardan ibarət sərgi ilə tanış olublar. Daha sonra tədbir iştirakçılarına müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevə həsr edilmiş sənədli film göstərilib.

***Zeynal AĞAZADƏ,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Minsk**